*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 107-113*

https://doi.org/10.62837/2025.2.107

**NOVRUZƏLİYEVA SEVDA CAID QIZI**
Azərbaycan Tibb Universtiteti, dosent
sevda.novruzaliyeva@mail.ru
orkid kodu: İD 0009-0007-9535-7791
**QOCAYEVA LEYLA VƏLI QIZI**
qocaleyla511@gmail.com
Azərbaycan Tibb Universtiteti, dosent
orkid kodu: İD 0009-0003-0382-4101

# ÜNSIYYƏT VƏ QADINLARIN KREATIV ROLU

*Qadınların cəmiyyət qarşısında bir çox vəzifələri var, onlardan biri (ən önəmli olanlardan biri) kreativ olmalarıdır. Elə bir qadın tapmaq olmaz ki, hansısa bir işdə kreativ (qurub yaradıcı) olmasın. Onların arasında fərq odur ki, kimisi çox kreativ, kimisi də az kreativdir. Bu məqalədə qadınların peşə və sənət kreativliyinə yox, ailə və cəmiyyət qarşısındakı kreativliyinə, başqa sözlə, məişət kreativliyinə işıq salınır.*

**Böyüklərə sayğı kreativliyə aparan yol kimi**

Qadın, ana bir varlıqdır ki, dünyanın bütün dinləri, antik dönəmlərdən bu yana dünyaca tanınan dahilər qadının, ananın ünvanına könül alıcı xoş sözlər deyiblər. Belə kəlamlar minlərlə olsa da, kəlam olaraq heç biri bir başqasının tam olaraq təkrarı deyil, tam tərsinə, onların hər biri qadın, ana adının ucalığına fərqli prizma və yanaşmalardan yanaşırlar. Yerinə düşər deyək ki, bu sayda kəlamların o gücü yoxdur ki, qadının, ananın kimliyini, iç aləmini, gizli və açıq yaşantılarını tam olaraq ötürə bilsinlər.

Dinimiz islam olduğu üçün, dinimiz mərhəmət dini olduğu üçün, dinimiz analara dərin sayğı ilə yanaşdığı üçün ilk öncə Qurani-Kərimə üz tuturuq. Bir təkcə "İsra" surəsində uca Yaradan ata-anaya dair insanlara 5 əmr verir: ata-ana ilə yaxşı davranın, onlardan biri və ya hər ikisi yaşlılıq çağına çatırsa, onlara "uf" belə deməyin, onları azarlamayın, ikisinə də könül alıcı gözəl sözlər söyləyin, hər ikisinə acıyaraq onları mərhəmət qanadının altına alın (1, s.283):

*Rəbbin yalnız Özünə ibadət etmənizi və ata-ananızla yaxşı davranmanızı əmr etdi. Onlardan biri və ya hər ikisi sənin yanında yaşlılıq çağına çatırlarsa, onlara "uf" belə demə. Onları azarlama. İkisinə də könül alıcı gözəl sözlər söylə. Hər ikisinə acıyaraq, mərhəmət qanadının altına al.*

**Ev xanımlığı kreativliyə aparan yol kimi**

Yaxşı bir ev xanımı ideala yaxın, qurub yaradan, davranış və baxışlarında köklü dəyişiliklər sərgiləyən bir xanımdır. Belə qadının kimliyinə aydınlıq gətirən yazılar çoxdur. Onlardan birini Rusiya dövlət quruculuğunda çoxsaylı böyük

dəyişiliklər edən İkinci Yekaterina adlı imperatriçadır. Bu dövlət qadınından gətirdiyimiz sitatda yaxşı ev xanımının kimliyi 5 sırada incələnir.

Birinci sırada "sakit, sadə, düzənli, ehtiyatlı qadın" adlı davranış dördlüyü dayanır. Bu dördlük qadına şans verir ki, ailəsini ayaqda tutsun, onu büdrəmə və sapmalardan qorusun. İkinci sırada "Tanrıya qarşı istəkli, qaynana və qaynataya qarşı sayğılı qadın" adlı davranış üçlüyü yer alır. Bu üçlük üzündən qadın tanrısevər, qaynana və qaynataya sayğı duyan bir fərdə dönür. Üçüncü sırada "ərə qarşı sevgi və nəzakət sərgiləyən, uşaqlarına düzgün və qonşulara sevgi aşılayan qadın" adlı davranış dördlüyü rastlanır. Bu sıranı izləyən qadın "sevgi, nəzakət, düzlük, sayğı" mələyinə dönür. Dördüncü sırada "qohum və qudalara qarşı ədəbli olan, gözəl sözləri həvəslə dinləyən, yalan və kələkdən yayınan qadın" adlı davranış beşliyi görünür. Bu sıraya uyan qadın qohumcanlı, qudacanlı, yalan və kələyə düşmən olur. Beşinci sırada "boş dayanmayan, çalışqan və xərcləmələrdə qənaətcil olan qadın" adlı davranış üçlüyü qabardılır. Bu sıra qadını boş dayanmamağa, zəhmətsevərliyə və qənaətə dəvət edir (2):*Yaxşı ev xanımının vəzifəsi budur: sakit, sadə, düzənli, ehtiyatlı olsun; Tanrıya qarşı istəkli, qaynana və qaynataya qarşı sayğılı olsun; əri ilə sevgi və nəzakətlə davransın, kiçik uşaqlara düzlük və qonşulara sevgi aşılasın; qohum və qudalara qarşı ədəbli olsun, gözəl sözləri həvəslə dinləsin, yalan və kələkdən yayınsın; boş dayanmayıb hər məhsul üçün çalışqan və xərcləmələrdə qənaətcil olsun.*

**Təhsil kreativliyə aparan yol kimi**

Bir uşağın sözün geniş anlamda ilk müəllimi (yatırdanı, oyadanı, yedizdirəni, danışdıranı, güldürəni, gülümsədəni, yeridəni, canından çox istəyəni) anasıdır. Uşağı üçün çəkdiyi acı və çətinlikləri təkcə ana sevgisi xəfiflədir. Qadının ailəyə önəmli və vaz geçilməz bir vəzifəsi var, bu vəzifə analıq deyə anılır. Ana körpəsinin ilk sosial çevrəsini körpə onun bətnində ikən yaradır. Ana xeyirsevər, bacarıqlı, xəyalquran, plancızan, zəhmətçəkən olursa, üstəlik, təhsilli olursa, o zaman körpənin ana bətnindəki ilk sosial çevrəsi gələcək sosial çevrəsinə bir körpü salır. Çünki hamilə ana nə düşünürsə, nə deyirsə, nə öyrənib öyrədirsə, hansı davranış sərgiləyirsə, körpəsi ötürülən gen kodları ilə onları düşünür, onları deyir, onları öyrənir, o davranışı sərgiləyir. Demək, hər uşaq anasının bir başqa biçimdə, bir başqa adda, bir başqa yaşamda kopyasıdır.

19-cu əsr fransız imperatoru, Napeleon Bonapart bir millətin mədəni və təhsilli olmasını anaların təhsilli olmasına bağlayıb deyir ki, mənə təhsilli bir ana verin, mən də sizə mədəni və təhsilli bir millətin doğuşunu vəd edim (3, s. 38)):*Mənə təhsilli bir ana verin, sizə mədəni, təhsilli bir millətin doğuşunu vəd edim.*

Buna diqqət edək ki, Napoleon "təhsilli" anlayışından öncə "mədəni" anlayışına yer ayırır. Bu da ondan irəli gəlir ki, bir qadın təhsilli olursa, o, təhsilli olmaqla yanaşı, həm də mədəni insan olmuş olur. Demək, təhsil təkcə təhsil deyil,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 107-113*

həm də mədəniyyətdir. Göründüyü kimi, təhsil almış qadın cəmiyyətin qayda və normalarına uyan, onlara sayğı göstərən, anlayışlı bir şəxsdir.

Göründüyü kimi, "təhsil+xeyirxahlıq" cütlüyünə yüklənən qadın dərin qənaətimizcə, adi bir qadın deyil, ailə və cəmiyyətin qaymağı olan ideal bir qadın olur. Xoş halına elə qadınlara sahib olan ailə və cəmiyyətlərə.

Təhsil evlilik seçiminə birbaşa təsir edir. Təhsil alaraq gələcəkdə ana olmaq istəyən bir qız evlilikdən öncə gələcək həyat yoldaşının kim olacağı üzərində çox düşünür, həyat üçün yetərincə önəmli olan bu işdə yanılmamaq üçün riskə getməkdən çəkinir. Aparılan araşdırmalara görə, təhsilli qadınlar arasında boşanmaların sayı azdır, təhsil almayıb evlənən qadınlar arasında isə yüksəkdir.

Evlənənləri boşandıran səbəblərin hamısı maddi motivlərdən deyil, bir qismi, bəlkə də yarısı bir-birini öyrənməyib ailə qurmaqdan, dünyaya baxış pəncərələrinin fərqli olmalarından qaynaqlanır. Dünyaca tanınan rus yazarı Fyodor Dostoyevskinin düzgün qənaətinə görə, oxuyan bir qadın asan sevə bilməz, yəni qarşı tərəfin təkcə fiziki görkəmini sevməz, həm də iç dünyasını (xasiyyətini, dünyaya baxış bucağını) sevər və elə bir qadın yalnız öz detallarına bənzər olan mənəvi əkizini axtarar (5):*Oxuyan bir qadın asan sevə bilməz. O sadəcə öz detallarına bənzər olan mənəvi əkizini arayıb axtarar.*

**Təxmin kreativliyə aparan yol kimi**

Tanrının insana ayırdığı bacarıqlardan biri təxmin etmə (güman etmə) gücüdür. İngiliscə "guess", türkcə ərəb kökənli "tahmin", azərbaycanca ərəb kökənli "təxmin" dedikdə ağla, təcrübəyə, keçmişdən ibrət almaya, biliyə, yaddaşa və hissə dayanaraq, gələcəkdə olası bir hadisəni, bir durumu qabaqcadan bilmək deməkdir. Təxmin edilən doğru çıxa bilər, çıxmaya da bilər. Bir təxminin yüzə yüz doğruluğunu yalnız zaman bilər, qabaqcadan heç kim tam olaraq bilməz.

Təbiət bir çox üstünlükləri kişilərə verirkən, bir çox üstünlükləri də qadınlara verir. Sanki bununla balans saxlanılır. Qadınların sahibləndiyi bacarıqlarından biri təxmin və gümandır. Dünyaca tanınan ingilis yazarı, ədəbiyyat üzrə Nobel mükafatçısı Redyard Kipling doğru olaraq bu qənaəti bölüşür ki, qadınların təxmini kişilərin əminliyindən daha çox doğrudur. Buna diqqət edək ki, bu yazar demir doğrudur, deyir daha çox doğrudur (6): *Bir qadının təxmini bir kişinin əminliyindən daha çox doğrudur.*

**Dayaq durmaq kreativliyə aparan yol kimi**

Böyük rus tənqidçi və nəzəriyyəçisi Vissarion Belinski qadınların yaradıcı bacarığını yüksək dəyərləndirərkən onların 7 özəlliyini önə çəkir, "qadın" mənasında rusca "женщина" sözündə 7 hərfə sanki işarə edərək (7):

1. kişinin yaşadığı hər mərhələsində qoruyucu mələk olması,
2. yer üzündə incəlik təmsilçisi olması,
3. sevgi rahibəsi olması,
4. fədakarlıq rahibəsi olması,

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 107-113*

5. sıxıntı və kədər anlarında təsəlli verici olması,
6. kişinin sevinci olması,
7. kişinin qüruru olması,

Xristian və islam inanclarına görə, Yaradan hər insan üçün bir qoruyucu mələk ayırır, neçə ki Tanrının bir insan üçün yazdığı ömür payı sona çatmayıb, bu mələk onu xəta və bəlalardan qoruyar. Demək, qoruyucu mələk təmənna olmadan, sadəcə vəzifəsi olduğuna görə bir insanı ömrü boyu qoruduğu kimi, bir qadın da təmənna olmadan, sadəcə bir vəzifə olaraq həyat yoldaşını ömrü boyu xəta və bəlalardan qoruyur. Dinindən, inancından aslı olmayaraq, ana olan qadının öz övladları üçün, həyat yoldaşı olan qadının öz həyat yoldaşı üçün qoruyucu mələk olması tam təbii və məntiqli bir haldır.

Qadınların sevgi rahibəsi, fədakarlıq rahibəsi, incəlik təmsilçisi olmasına gəlincə, "incəlik" olaraq çevirdiyimiz rusca "грация" ismi latınca "qratia" ismindən törənməklə estetik bir termin kimi "hərəkətdə ikən sərgilənən gözəllik" anlamına gəlir. Başqa sözlə, "грация" yer üzündə qadınlara xas hərəkət (yeriş, oturuş, duruş, baxış) gözəlliyidir. Qadınların sevgi rahibəsi olmasına gəlincə, bu o deməkdir ki, qadınlar birini sevsələr, hətta çox sevsələr də, həya edərək sevgini dilə gətirmirlər, sevginin verdiyi acı və üzüntünü çəkə-çəkə. Həya sevgi sızıntılarını üzə çıxmağa qoymur. Fədakarlıq rahibəsi olmasına gəlincə, üstün insani özəlliklərin daşıyıcısı olan bir qadın ömür-gün yoldaşı üçün fədakarlıq etməyə, bu özəlliklərə sahib olan bir ana isə balaları üçün hətta ölümə getməyə hazırdır. Bala sevgisi anaya həyat sevgisini unutdurur. Buna deyirlər, bir sevginin önündə digər bir sevginin sönməsi.

**Mənəvi güc kreativliyə aparan yol kimi**

Bir qadın mənəvi gücə sahib olursa, ilham verici, motivasiya edici, ümid doğurucu və sayğı duyulan bir fərd olur. Belə qadınlar həyat axarına qarşı getməkdən çəkinmir, çətinlik və stereotiplərə meydan oxuyurlar. Qadının mənəvi gücünü göstərən faktorlar çoxdur, onların arasında dirəniş, empatiya, cəsarət, qayğı, mərhəmət, şəfqət, dürüstlük, hədəfə bağlılıq, enerji kimi faktorlar da var. Bir qadın bir problem qarşısında dirəniş (müqavimət) göstərirsə, həyatında pozitiv dəyişiliklərə sahiblənmək istəyir. Bir qadında empatiya varsa, başqalarının emosiyalarını hiss etmək bacarığına sahibdir. Bir qadında cəsarət varsa, heç bir problem, çətinlikdən qorxmur. Bir qadın başqalarına qayğı göstərirsə, mərhəmət edirsə, şəfqət göstərirsə, dürüst bir həyat sürürsə, insani dəyərlərə sahib bir qadındır. Bir qadın hədəfə bağlı olursa, dəyişəcək gələcək qurmaq istəyir. Bir qadında enerji varsa, onları yerinə yetirməyə yetərincə həvəs və gücü vardır.

**Mövzunun aktuallığı**

Ünsiyyət prosesində qadınların rolu böyükdür, bu incə və həyat verici varlığın qatılmadığı bir ünsiyyət növünü tapmaq çətindir, tam tərsinə, qadınlar, özəlliklə kreativ qadınlar həyatın diktə etdiyi yeni-yeni ünsiyyət prosesinə aktiv qoşulurlar. Dünyanın ayrı-ayrı yerlərində, o sıradan ölkəmizdə ailə yaşamı ilə bağlı kreativ

prosesdə qadınların rolundan bəhs edən televizya yayımları və sosial mediada onların işıqlanması surətlənib.

Məqalənin aktuallığı odur ki, ailə və cəmiyyətdə qadınların kreativ roluna toxunur, bu prosesdə yaşanan incə anlara yanaşma sərgiləyir. Xeyirxah, təhsilli, müdrik, ailəcanlı, qohumcanlı, yardımsevər, dayaq duran analar təqdir olunur.

Bu elmi işdə ingiliscə, rusca, fransızca olmaqla 3 beynəlxalq dildə sitatlara yer ayrılması, azərbaycancaya etdiyimiz düzgün tərcümələr məqalənin aktuallığını artıran çağdaş bir yanaşmadır.

**Elmi yeniliyi**

Ünsiyyət və qadın bir-biri ilə sıx bağlı olan anlayışlardır. Onları bir-birindən ayırmaq bəşərin sonunu gözləmək deməkdir. Ana, nənə, isti ocaq yaradan, ailə yuvası quran qadınlar cəmiyyətin baş tacı olmağa layiqdirlər.

Məqalənin elmi yeniliyi odur ki, geniş yaradıcı və qurucu potensiala sahib qadınların ailədə və cəmiyyətdə rolunu "böyüklərə saygı", "ev xanımlığı", "təhsil", "təxmin", "dayaq durmaq", "mənəvi güc" prizmalarından öyrənir. Bu prizmaların hər biri ayrı-ayrı humanitar elmlərin tədqiq etdiyi sahələrdir.

**Praktik əhəmiyyət və tətbiqi**

Məqalədə yer alan yanaşmalar, alınan nəticə və rəylər bir çox elmi sahələrdə - fəlsəfə, pedaqogika, psixologiya, akademik və işgüzar kommunikasiya və dilçilikdə, habelə dissertasiya və elmi məqalələrin yazılmasında istifadə oluna bilər. Məqalənin buna dair potensialı var.

**Ədəbiyyat**

1. Qurani-Kərim, Azərbaycan dilində, Bakı "Nurlar", 2017, 624 s.
2. https://www.aphorism-citation.com / Екатерина Великая-цитата
3. İn the Words of Napoleon, "Greenhill Books", 2002, 416 p.
4. https://www.citation-celebre.leparisen.fr / Citation de Napeleon
5. https://www.citaty.info / Женшина, Которая Читает /Достоевский
6. Kipling R., The Day's Work, "Miniature Masterpiece", 2019, 195 p.
7. https://www.citaty.net / женшина Ангел Хранитель / Белинский
8. https://www.goodreads.com / Quotes by Hillary Clinton
9. Rilley S., Eleanora Roosevelt Quote, "İndependently Published", 2023, 120 p.

**Xülasə**

**Ünsiyyət və qadınların kreativ rolu**

Novruzəliyeva Sevda Caid qızı
Qocayeva Leyla Vəli qızı

Ünsiyyət yönləndirici, motivasiya verən, plan ötürən, coşqu yaradan, həyata məna qatan bir prosesdir. Bəşər heç zaman bir an belə ünsiyyətsiz olmayıb və heç zaman da olmayacaq. İnsanı yaradan Tanrı olsa da, insanı təkmilləşdirən, indi malik oluqlarına çatdıran yalnız ünsiyyətdir.

Qadınların, özəlliklə kreativ qadınların ünsiyyətə qatılması ünsiyyətə yeni-yeni mənalar qatır, ona ülvi bir görkəm verir.

Bu elmi işdə 6 başlıq var - böyüklərə sayğı kreativliyə aparan yol kimi, ev xanımlığı kreativliyə aparan yol kimi, təhsil kreativliyə aparan yol kimi, təxmin kreativliyə aparan yol kimi, dayaq durmaq kreativliyə aparan yol kimi , mənəvi güc kreativliyə aparan yol kimi.

Qeyd edək ki, "Böyüklərə sayğı kreativliyə aparan yol kimi" başlığında Qurani-Kərimin öyüdlərinə yer ayrılır. "Ev xanımlığı kreativliyə aparan yol kimi" başlığında ailə səadəti və uşaq tərbiyyəsinə dair praktik fikirlər səslənir. "Təhsil kreativliyə aparan yol kimi" başlığında təhsilin qadınların həyatında rolundan danışılır. "Təxmin kreativliyə aparan yol kimi" başlığında qadınların təxmin və gümanının pozitivliyindən bəhs edilir. "Dayaq durmaq kreativliyə aparan yol kimi" başlığında qadınların qoruyucu mələk olması qeyd olunur. "Mənəvi güc kreativliyə aparan yol kimi" başlığında qadınların mənəvi gücünün əzəmətinə işıq salınır.

Bu elmi işdə Qurani-Kərimdən, habelə İkinci Yekaterina, Napeleon Bonapart, Vissarion Belinski, Fyodor Dostoyevski, Redyard Kipling, Eleanora Ruzvelt, Hillari Klinton kimi şəxslərdən dəyərli sitatlar təqdim olunur.

**Açar sözlər:** ünsiyyət, kreativ qadın, böyüklərə sayğı, evdar xanım, təhsil, mənəvi güc, tərcümə, ingiliscə, rusca, fransızca

**Summary**

Communication and the creative role of women

Novruzaliyeva Sevda Jaid
Qodjayeva Leyla Vali q.

Communication is a process that guides, motivates, transmits plans, creates enthusiasm, and adds meaning to life. Man has never been without communication for a moment and never will be. Although God created man, it is only communication that improves man and brings him to what he has now. The participation of women, especially creative women, in communication adds new meanings to communication and gives it a sublime appearance.

There are 6 titles in this scientific work - respect for elders as a path to creativity, housewifery as a path to creativity, education as a path to creativity, guesswork as a path to creativity, support as a path to creativity, and spiritual strength as a path to creativity. Let us note that the title "Respect for elders as a path to creativity" devotes space to the teachings of the Holy Quran. The title "Housewifery as a Path to Creativity" provides practical ideas on family happiness and child rearing. The title "Education as a Path to Creativity" discusses the role of education in women's lives. The title "Guess as a Path to Creativity" discusses the positivity of women's guesses and assumptions. The title "Support as a Path to Creativity" highlights the guardian angels of women. The title "Moral Strength as a Path to Creativity" sheds light on the greatness of women's moral strength.

This scientific work presents valuable quotes from the Holy Quran, as well as from such figures as Catherine II, Napoleon Bonaparte, Vissarion Belinsky, Fyodor Dostoevsky, Rudyard Kipling, Eleanor Roosevelt, Hillary Clinton.

**Keywords:** communication, creative woman, respect for elders, housewife, education, moral strength, translation, English, Russian, French

**Краткое содержание**

Общение и креативная роль женщин

***Новрузалиева Севда джаид***
***Годжаева Лейла Вели к.***

Общение — это процесс, который направляет, мотивирует, доносит планы, создает энтузиазм и придает смысл жизни. Человечество никогда не оставалось без общения и никогда не останется. Хотя Бог создал человека, только общение совершенствует человека и приводит его к тому, что он имеет сейчас. Участие женщин, особенно креативных женщин придает общению новые смыслы и возвышенный вид. Эта научная работа имеет 6 заголовок - уважение к старшим как путь к творчеству, домохозяйство как путь к творчеству, образование как путь к творчеству, догадки как путь к творчеству, поддержка как путь к творчеству и духовная сила как путь к творчеству.

Следует отметить, что в названии «Уважение к старшим как путь к творчеству» уделено внимание учению Священного Корана. В рубрике «Домохозяйство как путь к творчеству» представлены практические идеи о семейном счастье и воспитании детей. В статье «Образование как путь к творчеству» обсуждается роль образования в жизни женщин. В статье «Догадки как путь к творчеству» обсуждается позитивность женских догадок и предположений. В названии « Поддержка как путь к творчеству» упоминаются женщины как ангелы-хранители. Название «Духовная сила как путь к творчеству» проливается свет на величие духовной силы женщины. В этой научной работе представлены ценные цитаты из Священного Корана, а также высказывания таких людей, как Екатерина II, Наполеон Бонапарт, Виссарион Белинский, Федор Достоевский, Редьярд Киплинг, Элеонора Рузвельт и Хиллари Клинтон.

**Ключевые слова:** общение, креативная женщина, уважение к старшим, домохозяйка, образование, духовная сила, перевод, английский, русский, французский

**Rəyçi: f.ü.f.d., dosent P.Ə.Əzizova**